AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 2 (272), 81-96

**Q R A M M A T İ K A**

# Mətn sintaksisi, yaxud sintaksisin mətni

***İsmayıl Kazımov***
Filologiya elmləri doktoru, professor. AMEA Nəsimi adına Dilçilik İnstitutu, Müasir Azərbaycan dili şöbəsi. Azərbaycan.
E-mail: prof.ismayil.kazimov@gmail.com
https://orcid.org/0000-0002-4470-8786

**XÜLASƏ**
Mətn dilçiliyinin problemləri çoxdur. Dil inkişaf etdikcə həmin problemlər də genişlənir. Bu mənada çox vacib məsələlərdən biri də mətn vahidlərini müəyyənləşdirməkdir. Biz mətni cümlədən fərqləndiririksə, o zaman ilk vahid də cümlədən yuxarı səviyyədə olmalıdır. Amma vahidlərin dəqiq sərhədləri hələ də təyin olunmamış, həmin məsələ mətn sintaksisi və sintaksisin mətnində həll edilməmişdir. Buna baxmayaraq, mətnin yuxarıdan aşağıya doğru tərkib hissələrinə ayrılması müəyyən həddə qədər müsbət nəticələr verir. Mətn nəzəriyyəsində bir neçə mühüm cəhətə – mətnin məna tərəfinə – əmələgəlmə prosesinə, dərk olunmasına, qavranılmasına; mühüm kommunikativ (ünsiyyət) vahidi olmasına; informativliyin təmin olunmasına diqqət yetirmək lazımdır. Bu üç mühüm şərt tədqiqat işlərində nəzərə alınmalıdır. İndi ümumtəhsil məktəblərinin Azərbaycan dili dərslərində biliklər mətn vasitəsilə öyrədilir. Belə ki, məktəbli mətnlə işləyir və bütün informasiyaları məhz oradan əldə edir.

**AÇAR SÖZLƏR**
mətn sintaksisi, mətnin təşkili mexanizmi, MSB (mürəkkəb sintaktik bütöv), mətnqurucu vasitələr, mətnin informativliyi

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 08.04.2022
qəbul edilib:15.04.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 2, VOL. 272, 81-96

GRAMMAR

# Text syntax, or the text of the syntax

***Ismail Kazimov***
Doctor of Philological Sciences, Professor. Institute of Linguistics named after Nasimi of ANAS, Department of Modern Azerbaijani Language. Azerbaijan.
E-mail: prof.ismayil.kazimov@gmail.com
https://orcid.org/0000-0002-4470-8786

**ABSTRACT**
There are many problems of text linguistics. As language develops, those problems expand. One of the most important issues is to identify the units of the text. If we distinguish text from sentences, then the first unit must also be at the top level of the sentence. However, the exact boundaries of these units have not yet been determined. This issue is not resolved in the text syntax and in the text of the syntax. However, the division of the text from top to bottom gives some positive results. In the theory of the text it is necessary to pay attention to several important aspects: the semantic side of the text – the process of formation, comprehension, perception; to be an important communicative unit; to ensure informatization. These three important conditions should be expected in research. Now in the Azerbaijani language classes of secondary schools, knowledge is taught through text. Works with school text. It goes inside and gets all the information from the text.

**KEYWORDS**
text syntax, text organization mechanism, CSW (complex syntactic whole), text-building tools, text informatics

**ARTICLE HISTORY**
Received: 08.04.2022
Accepted: 15.04.2022

## Giriş / Introduction

*"Sintaksis"* terminoloji vahidi yunan mənşəlidir (*"syntaxis"* – quruluş, sıra). Bu terminin əsas metodik və praktik parametrləri aşağıdakı kimi xarakterizə edilir:

1. Konkret dillərə xas olan və nitq vahidlərini təşkil edən qayda və vasitələrin bütünü;
2. Qrammatikanın nitq törəməsi və ya yaranması proseslərini öyrənən bir bölmə.

Burada, hər şeydən əvvəl, cümlə daxilində sözlərin ardıcıllığı və uyğunluğu tədqiq edilir. Bundan savayı, söyləm olaraq mətnin hissəsi, dilin isə müstəqil vahidi səviyyəsində cümlənin ümumi özəllikləri də həmin bölmədə araşdırılır [1, s.448].

Sintaksis – dilçiliyin əsas bölmələrindən və inkişafda olan şöbələrindən biridir. Təzə yaranan dil hadisələri bu bölmədə də hər zaman müşahidə olunur. Dildə yeni sintaktik formalaşma prosesi gedir. Xüsusən də, yeni mətnlər meydana gəlir ki, bu mətnlər vasitəsilə də dünyanın dil mənzərəsi dərk edilir.

*"Mətn"* (latınca *tekstum* – əlaqə, birləşmə) yazıda əksini tapmış nitq əsəri, söyləmdir.

"Mətn – başlığı və müəyyən məqsədyönlüyə, praqmatik məqama malik olan qrammatik, leksik, məntiqi, üslubi əlaqələrin ayrı-ayrı vasitəsilə birləşmiş bir çox xüsusi vahidlər (frazafövqi birliklər) ilə birlikdə bitmiş və ədəbi işlənmiş nitq əsərini təşkil edən dil nişanlarının qaydalı və yazılı birliyidir" [2, s.18].

Professor Q.Kazımov yazır ki, dil vahidləri sintaktik mahiyyət aldıqdan sonra ünsiyyət vasitəsinə dönür, daha doğrusu, "cümlələrin müəyyən fikir ətrafında əlaqəli birliyi mətnin yaranmasına səbəb olur" [3, s.424].

Mətnin yaranmasının əsaslı qanunauyğunluqları vardır. Onun təşkili mexanizmi, qurulma texnikası ardıcıl gələn cümlələrdə semantik proqressiya ilə bağlıdır. Bu sahədəki qanunauyğunluqların hərtərəfli tədqiqi bir sıra problemlərin həllinə kömək edir, dilin funksional əhəmiyyətini daha ətraflı üzə çıxarır. Ona görə də sintaksisin vəzifəsi yalnız söz birləşməsi və cümləni öyrənməklə məhdudlaşmır. Yeni dövrdə mətnin struktur-semantik, funksional-praqmatik və kommunikativ xüsusiyyətləri onun əsas tədqiq obyektinə çevrilmişdir.

Mətnin özünəməxsus formalaşma mexanizmi vardır. Tədqiqatçılar da göstərir ki, mətn dilçiliyinin sonrakı mərhələlərində onu yaradan vasitələr üzərində dayanılır, hər hansı bir dil vahidinin mətnyaratma imkanları üzə çıxarılır [4, s.56].

Mətnin yaranma mexanizmi onun funksional-semantik tərəfi ilə bağlıdır. Bu sahədə bir çox funksional qanunauyğunluqlar mövcuddur. Funksionallıq ideyasının yaranması başlanğıcda əşyaların yerdəyişməsi funksiyası ilə əlaqədar olub, asılılıq ideyasına bərabər tutulurdu. Mətnin yaranmasına funksional yanaşma da həmişə dilçiləri düşünməyə vadar etmişdir. Bu cür yanaşma onun ifadə, məlumatvermə, təsviretmə, eləcə də informasiya funksiyalarını əmələ gətirmişdir.

Ümumiyyətlə, funksiya dil sistemində mövqe ilə təyin olunan bir formadır. Həmin mövqe dildaxili qanunlara arxalanır. Dilin başlıca funksiyası olan ünsiyyət (kommunikasiya) funksiyası məhz sintaksis təlimdə reallaşır.

*Bütövlük* mətnin fikri-məna baxımdan düz xətt boyunca sıralanmasını təmin edir.

Mətnin əlaqəliliyi kommunikasiya sistemini təmin edir və onu qaydaya salır. Zəncirvari əlaqə mətnin elementləri arasında müxtəlif qrammatik vasitələrin birliyini əmələ gətirir. Məntiqi əlaqə də eynilə bu funksiyanı yerinə yetirir. Bədii əsərləri quran mətnlərdə elementlərarası əlaqə obraz sistemini və assosiativ hissəni təşkil edir.

Mətnin növbəti səciyyəsi onun *bağlılığı, qapalılığı* ilə əlaqəlidir. Xüsusən də, yazılı nitq və mətn üçün bu əlamət daha mühümdür.

Beləliklə, bu gün də sintaksisin yeni sahələri meydana çıxır. Funksional sintaksis, koqnitiv sintaksis, mətn sintaksisi və s. Mətn sintaksisi dilçiliyin mühüm sahələrindəndir. Sintaktik quruluş sanki mətnlə başa çatır. Söz birləşməsi, cümlə və mətn sırası bu deyiləni əsaslandıra bilər.

Dilimiz fonetikadan mətnə kimi inamlı inkişaf prosesi keçmişdir. Bu təkamüldə sintaktik quruluş əsaslı şəkildə təmin edilmiş və onu səciyyələndirən bütün düşüncə məhsulu olan mətnlər yaranmışdır.

Biz bu paralelizmi nə üçün məqalənin başlığına çıxardıq? Çünki bu iki anlayış üzrə mətn qrammatikasını daha müfəssəl və müqayisəli biçimdə öyrənmək olar.

Mətnin cümlədən böyük, yəni mürəkkəb sintaktik bütöv (MSB) səviyyəsində öyrənilməsi problemi dilçilikdə XX əsrin ikinci yarısından sonra ortaya çıxmışdır. Bütövlükdə isə mətn sintaksisi XX əsrin sonlarında bütün parametrlərinə görə bir filoloji elm sahəsi kimi yaranmışdır.

Mətnin ümumi və detallı filoloji tədqiqi ilk öncə mətnşünaslıq, ədəbi mətnlərin tənqidi nüsxələrinin hazırlanması, mətn nəzəriyyəsi və ya ədəbi mətnlərin ayrı-ayrı təfəkkür üslubları, həmçinin yayğın ədəbiyyatşünaslıq və linqvistik metodları işıqlandırılmasıyla bilinməkdədir. 1980-ci illərdən etibarən isə mətn dilçiliyi, qrammatikası, quruluşu və sintaksisi, mətnin həm fonetik-fonoloji və morfonoloji, həm

qrammatik-leksik, leksik-leksikoqrafik, frazeoloji-semantik və funksional-semantik özəllikləri mətn-diskurs, intertekstual və interdiskursiv kontekstlərdə bir tam olaraq tədqiq olunmaqdadır [2, s.23].

Əslində mətn sintaksisi mürəkkəb sintaktik bütövlər (MSB), frazafövqi və cümlədən böyük vahidlər, bunlarla əlaqədar, mətn qrammatikası və mətn quruluşu anlayışları ortaya çıxmışdır. Mətn sintaksisi termin-anlayışının alt qavramları sintaktik bütövlər, mürəkkəb sintaktik bütövlər, frazafövqi vahidlərdir.

Mətnə təkcə dil (invariant) vahidi kimi deyil, həmçinin nitq kəsiyi, nitqin minimal vahidi (variant) kimi də baxılır. Professor K.Abdullayev mətnə cümlənin məna baxımından nisbi qeyri-bitkinliyini, müəyyən semantik çatışmazlığını aradan qaldıran kommunikativ bir kompleks kimi yanaşır. Həmin kompleks bütöv məna bitkinliyini nümayiş etdirir, semantik informasiyanın ötürülməsi və qəbul edilməsi prosesində əsas amil, cümlə kimi sintaktik iyerarxik sistemə daxil olur. Başqa sözlə desək, digər linqvistik kateqoriyalarla onun arasında konkret qarşılıqlı münasibətlər zənciri qurulur. Və əslində daha yüksəkdə duran sintaktik vahid kimi aparır. Çünki o, cümləyə münasibətdə həm struktur, həm də semantik planlarda daha geniş şaxəli mürəkkəblik nümayiş etdirir [5, s.56].

**Mətn qurmaq bacarığı**

Mətnyaradıcı proses sintaktik proseslər arasında çoxcəhətliliyi və mürəkkəbliyi ilə fərqlənir. Mətn necə yaranır və bu prosesdə hansı elementlər, vasitələr iştirak edir? Əsas derivasiya prosesləri hansı istiqamətləri əhatə edir?

Mətn yaratmaq qabiliyyəti hər kəsdə yoxdur. Bacarıq – mətni quranın dünyanı dərketməsindən asılıdır. Mətn təşkil olunan zaman alim, yazıçı, şair, publisist və başqaları bilik və məlumatındakı çatışmazlıqları başa düşür, gələcək yazılarında onları aradan qaldırmaq üçün səy göstərirlər. Bunun üçün öncə, mətnqurmanın imkanlarını öyrənmək lazımdır. Onlar subyektiv və obyektiv şərtlərin kompleksindən ibarətdir. Həmin imkanları araşdırarkən aşağıdakılar əsas götürülməlidir: mətni quranın bilik, məlumat dairəsi, mətndə müəllifin intensiyası (niyyəti, məqsədi), mətndə dil yenilikləri, dilin və nitqin vasitələrindən istifadə qaydaları, müəllif yaradıcılığının məhsuldarlığı, qazanılmış təcrübə və s.

Mətn insanın dünya ilə əlaqəsinin özünəməxsus bir formasıdır. Mətndə nə duyulursa, həqiqətən də dil və dilin vasitələrilə birbaşa bağlı olur. Azərbaycan dilində mətn sintaksisi haqqında xeyli yazılar mövcud olsa da, bir sıra məsələlər tədqiqatlardan kənarda qalmışdır.

Biz mətnin Azərbaycan insanının zehnindəki mənzərəsini, onu necə ortaya çıxarmaq bacarığını araşdırmaq məqsədini sərgiləmək istəyirik.

Əvvəlcədən deyək ki, mətn kənar hadisələrlə insanın daxili aləmi arasında bağlılıqdan irəli gələn ayrı bir dünyadır. Bunlar arasındakı əlaqə mətn vasitəsilə gerçəkləşən kompozisiyada dünyanı oxuculara anladır. Bu baxımdan mətnin "dünyanın dil mənzərəsi"ndə əlahiddə yeri görünür.

Mətn dünyanın modelidir. Mətni qurmaq bacarığına görə:

a) mətn güclü düşüncənin məhsulu kimi;

b) orta düşüncənin məhsulu kimi;

c) zəif düşüncənin məhsulu kimi qruplaşdırmaq olar.

Dünya dəyişdikcə mətnlər də dəyişir. Bu mətnlər dünyanın inkişafını əks etdirir. İndi şifahi mətnlər daha çox "baxın" sözü ilə bağlanır: Baxın, güclü Rusiya nisbətən zəif Ukraynanı öz caynağına almaq istəyir. "Düşünürəm ki" tamamlayıcı cümlələrlə başlanan mətnlər: Düşünürəm ki, Gülnarla mənim tanışlığım səmimi bir dostluğa çevriləcək. "Məni hansı yeniliklər gözləyir?" sualından bütöv bir mətn düzəltmək olar. "Mən o zaman dar çərçivədə düşünürdüm" etirafı maraqlı bir mətnin qurulmasına gətirib çıxara bilər. İşin gözəl tərəfi müəllimimi ilk gündən tanımağım oldu. Daima irəli getməli, geriyə baxmamalıyıq. Hər şeyin səbəbini bilmək də çətindir. Qeyd olunan bu söyləmləri çox asanlıqla geniş mətnlərə çevirmək mümkündür.

Azərbaycan dilinin lüğət və ifadə tərkibi daim yenilənir. Yeni söz birləşmələrinin mətnə daxil olması prosesi çox aktivdir: məlumatın davamlılığı, texnologiya dünyası, birja uğurları, hər şey barədə, çətinliklərlə üzləşmək, məqsədyönlü iş, hiper böyümə, biznesin nüvəsi, şirkətin güclü təməli, şirkətin çatışmazlığı, hər bir dəyişiklik, gözlənilməz hadisələr, məqsədlərimizi sadalayan, "açıq" ünsiyyət, uğursuzluqlarımızı bölüşmək, mədəniyyət və dəyərlər, arzu və istək elementi, dəyərlər çərçivəsində qərarlar qəbul edirik, gündəlik həyatımız, öz trayektoriyamız, qlobal işçi qüvvəsi, potensialla işləmək, liderlik istiqaməti, bizim üstünlüyümüz, şirkətlərlə əlaqələr, insan resursları və s.

**Mətn və kondensasiya (sıxılma).** *"Kondensasiya"* termini sıxılma mənasında işlənir. Bu mənanı *"kompressiya"* termini də daşıyır. Azərbaycan dili mətnlərində kondensasiya mexanizmini dil hadisələri törədir. Bunlara misal olaraq ellipsis, parselyasiya, qoşulma, ixtisar və s. hadisələri nümunə göstərə bilərik. Bizə elə gəlir ki, mətnin sıxılması dilin qənaət meyli ilə bağlıdır. Sıxılan mətn informasiyada

qənaət yaradır, məlumatın sürətlə çatdırılmasında öz müsbət rolunu göstərir. Sıxılmış mətn mətnin "deyktik" məzmununu əhatə edir.

Mətnin tərkib hissələri onun strukturunu nümayiş etdirir. *Period* mətnin tərkib hissələrindən biridir və onun formalaşmasında müəyyən rol oynayır. Period mürəkkəb, az öyrənilmiş sintaktik konstruksiyalardandır. Linqvistik ədəbiyyatda qrammatik periodun təbiəti barədə müxtəlif fikirlərə rast gəlmək olur. Bu sintaktik konstruksiyanın ritmik-melodik əlamətləri haqqında Aristotel, A.Vostokov, İ.Davıdov, İ.Lıskova, Q.Alparov, Ş.Ramazanov, A.Şapiro və başqa alimlər tədqiqatlar aparmışlar.

"Sintaktik bütövlər" bəzən *periodla* (yunanca *periodos* – dairəvi fırlanma) eyniləşdirilir. Periodla sintaktik bütövlər arasında da yaxınlıq var. Bir sintaktik bütöv bir period şəklində ifadə oluna bilər. Fərqləri ondadır ki, sintaktik bütövlər sağ tərəfdən açıq qalır, lakin period sağ tərəfdən başlanğıc cümlə ilə qapanmış olur.

Mətnin mühüm növlərindən biri də *bədii mətnlərdir*. Bədii mətnin əsas əlamətlərinə onun təyini, mətn nəzəriyyəsinin müasir vəziyyəti, sistem təşkil etməsi, üzvlənmə vahidləri, fraqmentləri, mürəkkəb sintaktik bütövlər, abzaslar, mətnyaradan vasitələr, antroposentrik və sosioloji əlamətlər və s. aiddir. Bədii mətnlər ayrı-ayrı yazıçılar, şairlər, publisistlər tərəfindən yazılmış parçalardır. Onların üslub zənginliyi və fərdi mətn quruculuğu daha rəngarəng formalarda özünü göstərir. Bədii mətnlər müəyyən bir iyerarxik bütövlüyə malikdir. Onların özünəməxsus quruluş qaydaları və həmin qaydalara əsasən müəyyənləşdirilən semantik-funksional əlaqələri mövcuddur.

Bədii mətnin məzmununu *"açar sözlər"* təşkil edir. Mətndə açar sözlər məna bütövlüyünü nümayiş etdirir: "Külək şiddətlənirdi. İri *damlalı yağış* xırdalanıb çisəyə çevrildi. Otlar ağırlaşıb boynunu əydi. Buğumlanmış çiçəklərin, sünbülləşmiş taxılların yarpaqlarında *damlalar* gilələndi. Cığırların tapdalanmış sarı torpağı sürüşkənləşdi. Əşrəf başıaçıq, düşüncələr içində haraya getdiyini özü də bilmədən xır yolu ilə irəliləyirdi. Onun ayağının altındakı xırdaca daşlar xırçıldadı, pırpızlanmış saçına *narın çiskin* qondu. O, fikirli idi... Yolun ağımsov daşları yuyulmuşdu. Göyün üzündəki *buludlar* seyrəlsə də, hava *tutqun* idi. Axşam qaranlığının yaxınlaşması bu tutqunluğu daha da gücləndirirdi. Əşrəf üşürgələndiyindənmi, yoxsa *islaq* qanadlarını qurutmaq istədiklərindənmi, nədənsə tüklərini pırpızlandırıb çırpınan boz quşçuğazlara, çəmənlikdə dolaşan heyvanlara fikir vermədi. Yoldan burulub cığıra düşdü və asta addımlarla sahilə doğru endi" [İ.Şıxlı. Dəli Kür. Bakı, Yazıçı, 1983, s.236]. Açar sözlər: *damlalı yağış, narın çiskin, buludlar, tutqun, islaq.*

**Mətn və inteqrativlik**

Mətn sintaksisinin başqa bir xüsusiyyəti inteqrativlikdir. İnteqrativlik – mətnin nəzəriyyəsidir, onun bütövlüyüdür. O, mətndə bütövlük prosesinin yaranması əlaqələrinin bir-birinə təsiri nəticəsində meydana çıxır. İnteqrativliyin mümkün olan müxtəlif tipləri mətndə fərqli janr-üslub oriyentasiyasına malikdir, bu məsələlər hələ linqvistikada geniş öyrənilməyib. İnteqrativliyin psixolinqvistik təbiəti kommunikantın nitqdə fikir, mənayaratma aktivliyi ilə əlaqədardır. Bu baxımdan, bütövlük inteqrativliyin özündə, onun elementlərində və əsas əlaqələrdə bir daha öz təsdiqini tapır. İnteqrativlik mətnin bütün elementlərini sintez edir, mətnin məzmun planını həyata keçirir, onu müəllif intensiyası ilə uyğunlaşdırır.

Beləliklə, mətnin inteqrativ təhlili təbii olaraq mətn sintaksisinin nəzəri materiallarının mükəmməl mənimsənilməsini təmin edir, problemin təhlil olunacaq mərhələlərini elmi cəhətdən şərh və ifadə edir.

**Mətn və intensiya**

Mətn sintaksisinin digər bir xüsusiyyəti intensiya ilə əlaqədardır. İntensiya – müasir fəlsəfənin, psixologiya və linqvistikanın əsas anlayışlarından biridir. O, mətnin əsas (baza) kateqoriyası kimi özünü göstərir. *“İntensiya”* latınca *intentio* – cəhd, səy, can atma, meyl, arzu, niyyət mənalarını ifadə edir. Fəlsəfədə bu problem ontoloji məsələdir. Qlobal mətni intensiya müəllifin “fikir dünyası”nı əks etdirir. Qlobal intensiya şübhəsiz ki, intensional mətndə formalaşır. Ayrıca nitq aktı mətnlə əlaqəyə girərək inteqrasiya olunur. Bu zaman əsas qlobal mətni intensiya yaranır. İntensionallıq nəinki konkret nitq aktında, eyni zamanda bütöv mətndə gerçəkləşir.

“İntensiya” anlayışı danışanın kommunikativ niyyətini, məqsədini, arzusunu, fikrini və s. təyin edir. İntensiya həqiqətən də mətndə ifadə olunmur, o, mətnin material, məzmun və mahiyyətini təşkil edir, həmçinin qarşılıqlı əlaqəni, kommunikantın gücünü, qarşılıqlı münasibətin motivlərini, emosional-ekspressiv sferada şəxsiyyətin ünsiyyət prosesində dərketməsini nümayiş etdirir. Mətndə müəllif motivasiyasını, kommunikantların bir-birini başa düşmələrini təmin edir. Müəllif intensiyası informasiyanın xarakterinə görə nitqin hansı tipə (dialoji və monoloji) malik olduğunu müəyyənləşdirir, kommunikativ tapşırığı reallaşdırır: nəql etmək, məlumat vermək, aydınlaşdırmaq, göstərmək, müzakirə etmək və s.

*İntensiya* bədii əsərin məzmununu və dərketmənin istiqamətini müəyyənləşdirir. Mətndə intensiyanın meydana gəlməsində, reallaşmasında dil vahidlərinin rolu böyükdür. İntensiyalar şərait yaradır ki, praqmatik informasiya qarşı

tərəfə, oxucu və dinləyicilərə tez çatdırılsın. Bu müxtəlif tip mətni fəaliyyətlərdə (rəsmi-işgüzar, bədii, danışıq, publisistik və s.) özünü büruzə verir.

İntensiya mühüm mətnyaradıcı kateqoriyadır. O, müxtəlif tip mətnləri yaradır. Bədii mətnlərdə obraz və personajın arzu, niyyət, məqsədi və s. təzahür olunur. Mətni quran müəllifin ümumi intensiyası (niyyəti, məqsədi) dairəsində mətnyaradıcı funksiya formalaşır.

Göründüyü kimi, mətndə intensiyanın rolu böyükdür. Müasir antroposentrik paradiqma koqnitiv, kommunikativ və praqmatik elmi metodlar kimi mühüm rol oynayır. İntensional metod da inteqral linqvoüslubi metodlardan biridir. Bu metodun aparatı aşağıdakılardır: *intensiya, intensionallıq, intensional kateqoriya, adresant, adresat.*

*Antroposentrik paradiqma* müasir linqvistikada elmi metod kimi meydana gəlmişdir. Onun mərkəzində insanın dərketmə və nitq fəaliyyətinin təsviri dayanır. İntensiya ilə bağlı mətndə kommunikativ zəncir bunlardır: adresant-mətn+kommunikativ situasiya – adresat.

Mətn çoxölçülü xüsusiyyətlərə malikdir. Onun şərhi, hadisələrin təsviri, orada aşılanan fikrin qavranılması mətnin çoxplanlı bir vahid olduğundan xəbər verir. Bu cəhətdən mətn konstiutiv vasitələr sistemində əlverişli mövqe tutur, bədii, elmi, publisistik mühitdə seqmentləşir və müəllif tərəfindən yaradılır. *"Mətn doğulur və müəllif intensiyasını diqtə edir"* [6, s.45].

XX-XXI əsrdə linqvistikada antroposentrik tədqiqatlara artıq yer verilməyə başlayır ki, mətndə müəllif intensiyası da bu məqsədlə meydana gəlmişdir. Dilin funksional qanunauyğunluqlarının dil vahidləri ilə ifadəsi, bu sferada danışanın niyyət və məqsədinin müəyyənləşdirilməsi antroposentrik tədqiqatların qarşısında durur.

*İntensiya* xəbərdarlıq və xəbərdarlıq edilmə xüsusiyyətlərinə malikdir. Mətndə sözün praqmatik potensialı çoxşaxəli, geniş olur. Bu zaman müxtəlif requlyar nitq və geniş spektrli intensiyalar (arzu, istək) gerçəkləşir.

Nağıl etmək – bu, nitqin dinamik funksional fikir, məna tipidir. Mətndə informasiya 3-cü şəxsin dili ilə nəql edilir. Bunlara tarixi mətnlər misal ola bilər. Məsələn: Bəzi tarixi hadisələr mətnlər vasitəsilə nəql edilir, dinamik, aktiv tarixi proseslər əks olunur, burada kommunikativ intensiya informasiyaverici və konstatlaşma xarakteri daşıyır. Məsələn: "XI-XVI yüzilliklərdə Azərbaycanda anadilli ədəbiyyatın güclü inkişafı, xüsusilə də qüdrətli Səfəvilər dövlətinin ilkin çağlarında ana dilinə olan qayğı və himayənin artması, türkcənin əvvəlki dövrlərdən fərqli olaraq, saraya və or-

duya da yol tapması, bununla da müəyyən mənada dövlət dili səviyyəsinə yüksəlməsi bir sıra dini və sufi məzmunlu əsərlərin ərəbcədən və farscadan dilimizə tərcümə edilməsini və bütövlükdə götürdükdə tərcümə sənətinin geniş yayılmasını şərtləndirmişdir" [7, s.3].

Təsvir mətnlər, həmçinin konstatlaşma səciyyəlidir, burada predmetin əlamət və keyfiyyətinə diqqət yetirilir. Müəllif intensiyası konstatlaşma hesabına gerçəkləşir, təsvir edilir, predmet haqqında informasiya və əlamət barədə məlumat ötürülür. Təsviri mətnlərdə predmetin, sxemin, obyektin texniki xarakteri dəqiq əks olunur, burada kommunikativ intensiya konstatlaşma səviyyəsində meydana çıxır, göstərilir, təsvir olunur. Geniş mənada intensiya anlayışı mətndə danışanın kommunikativ niyyətini, fikrini, məramını, arzusunu, muradını, məqsədini ifadə edir: Mən Göyçaya getmək fikrindəyəm. Siz yayda harada istirahət etmək fikrindəsiniz?

İntensiya qarşılıqlı əlaqə, rabitə situasiyası ilə sıx şəkildə bağlıdır. İnsanın, obrazın qarşılıqlı əlaqə şəraitində əxlaqı, rəftarı, hərəkət tərzi və s. mətni intensiyaların formalaşmasında aparıcı yer tutur. Mətnlərarası kommunikativ vahidlərin əmələ gətirdiyi münasibət (daxili iyerarxik sosial sahədə kommunikativ dərketmə, anlama) cəhdi mətnin üslubi və janr əlamətləri makrointensiyanı yaradır, müəyyən məqsədlərin həyata keçməsini gerçəkləşdirir. Daxili kommunikativ proqram mikrointensiyanı müxtəlif tip mətnlər vasitəsilə konkretləşdirir, bir sıra intensiyaları yerinə yetirir, dil ifadələrinin spesifik, daha aktiv formalarını üzə çıxarır.

Mətnin mikrointensiyası deyərkən şəfqət göstərən, dərdə şərik olan, həmdərd, canıyanan, canfəşanlıq göstərən, hüsn-rəğbət bəsləyən və s. kimi yaxınmənalı vahidlər başa düşülür.

Başqa cür ifadə etsək, mətndə bir sıra intensiyalar güdülə bilir. İnformativ söyləmlər az hallarda, eyni zamanda yuxarıdakı hissləri ifadə edir, nəticədə danışanın məqsədi aydın olur: *"Mən qələmimi (pulumu, əlcəyimi və s.) unutmuşam".* Belə söyləmlərdə reaksiya 3 tipdə reallaşır: (1) həmdərd; ürəyi yanan, qeyri-həmdərd; (2) ürəyi yanmayan ("Məndə, həmçinin diş pastası qurtarıb").

Situasiyaların dəqiq təhlili və adresatın reaksiyası nəinki intensiyanın dil formalarını meydana çıxarır, həmçinin nitqin, əxlaqın, davranışın, həyat tərzinin milli spesifik xüsusiyyətlərini əhatə edir.

Praqmalinqvistik eksperimentin nəticələri göstərir ki, verbal hüsn-rəğbət, ifadəetmə dəqiq nitq situasiyasında intensiyanı dəqiqləşdirir [Клушина Н.И. Москва, 2008].

İntensionallıq *“konsept”* anlayışı ilə qarşılıqlı əlaqədə üzə çıxır. Konseptin nüvəsində bütövlük xarakterizə olunur. Məsələn, müəllif hər hansı bir konsepti təsəvvür edirsə, onun koqnitiv davranışında, əlbəttə, məqsəd və niyyətini ifadə edir.

Bu cəhət, mətnin kommunikativ istiqamətini, fikir-məzmun bütövlüyünü istiqamətləndirir. İntensiyanı aydınlaşdıran dil vasitələri mətnin koqnitiv (konseptual) təhlili nəticəsində qurulur.

Müəllifin məqsədi həmişə söyləmin dərkedilməsini, mənimsənilməsini oriyentasiya edir. Mətn intensiyanın “şəxsiyyətlərarası” xarakterini təyin edir, müəyyənləşdirir.

İntensiya bədii mətndə çoxölçülü xarakter daşıyır. Əsas intensiyalardan avanqard və bünövrəsi, özülü qoyulmuş mətnlərdə istifadə olunur. Şeirlərdə şairin intensiyası emosional səciyyəlidir. Müəllifin müxtəlif istiqamətlərdəki məqsədi rəngarəng laylı emosiyaları doğurur, “yüksək istinanın – həqiqətin, doğruluğun dərki kimi nəticələnir”. Beləliklə, mətndə intensiyanın gerçəkləşməsinin xarakteri ədəbi istiqamətin özünəxas bütövlüyünü təsdiq edir. İntensionallıq bədii mətnlərdə:

Qolu bağlı keçdin Xudafərindən,
Mən qolu bağlı da keçə bilmirəm...
[Hüseyn Kürdoğlu].

Bu misralarda şairin intensiyası xatırlama intensiyasıdır. O, böyük ustadlarını – Məhsətini, Qurbanini, Xəstə Qasımı, Qul Abbası, Arazla bağlı təfərrüatları xatırlayır və Qurbaniyə qibtə edir:

Könlümdən Təbriz keçər,
Neçə təpə, düz keçər.
Xəyalım yaz mehi tək
Arazdan səssiz keçər
[Hüseyn Kürdoğlu].

İntensionallıq publisistik mətnlərdə: “Kamal Abdullanın zamanı həm miflə gerçəklik arasındakı, Berqsonun qavramındakı zamandır… Elə buna görə də onun yaradıcılığında bütöv və parçalanmaz bir zaman var və bu bütöv zaman Dansökülə, Günortac və Qürubun bir təfəkkürdə, bir düşüncədə inikası, kosmoloji dövrdən ilkin antik dövrə və həm də bugünümüzə qədər bir billurda sayrışması və cərəyanıdır. Kamal Abdulla öz ədəbiyyatını özünün qurduğu ədəbiyyat nəzəriyyəsi əsaslarında

yaradan tək yazıçımızdır. …Onunla söhbət etməyin özü bir yaradıcılıqdır…” [8, s.32].

Müəllifin bu publisistik mətndə intensiyası aydındır. Bu intensiya xalq yazıçısı Kamal Abdullanın özünəməxsus bir ədəbiyyatı olduğunu bildirir.

**Mətn və üslubiyyat**

Mətn çoxdandır ki, üslubiyyatın da tədqiqat obyekti kimi çıxış edir, tədqiqat prinsipi dil vahidlərinin seçilməsindən və istifadəsindən asılıdır. Üslubiyyat elmi mətnə adresata yönəlmə kimi baxır: *“Müəllifin yaradıcılıq intensiyası” (məqsəd və niyyəti)* (Karasik) nöqteyi-nəzərindən yanaşır.

**Mətn və hadisə**

Mətnin bağlı olduğu mühüm məsələlərdən biri hadisədir. Mətndə hər hansı bir hadisə, əhvalat, vaqiə, macəra, sosial və ya şəxsi həyatda vaqe olan, baş verən hal, həyatın adi qaydasını, normal gedişini pozan iş və s. təsvir olunur. Məsələn: Qatırlar dağa dırmaşdıqca yol qısalır, dağlar ucalır, şəhər və bütün aran yerin dibinə çökür, ayaq altında qalırdı. Hamarlı dərəsindən yoxuşa çıxanda dağ boyu dolayı bir cığır uzanırdı. Ağ qurşaq kimi yaşıl dağın qoynuna dolanan bu cığır getdikcə yüksəlirdi. Yolun kənarından sallanan həmişəcavan palıd, nar ağacları zümrüd tağ kimi yolun üzərində çataqlanmışdı. Qədir qatırın yalından yapışıb belinə mindi. Bir əlini yarpaqlı budaqlara toxunduraraq oturdu. Sanki bundan, uşaq kimi xoşlanırdı. Altındakı qatır dodağını uzadıb budaqları qarmalayır, tikanları hiss etdikcə buraxırdı.

Aranda ağır işdə böyüyən, mahala nabələd olan Qədir ömründə bu yaylaqları görməmişdi. Ona görə hər addımda maraq və həvəsi artırdı. Qatırçılar bu yollarda araba aşmasından, adam uçmasından faciəli hadisələr danışırdılar. Doğrudan da, qurşaq kimi nazik yola araba salmağın nə qədər cəsarət istədiyini düşünür, əyilib dərənin tərkinə baxırdılar [Mir Cəlal., “Dirilən adam”].

Mətndə beynəlxalq hadisələrin təsviri: Rusiya ayağa qalxdı. Moskvada kütləvi həbslər var. Rusiya qarışdı. Putin yollar axtarır.

**Mətn və assosiativlik**

Assosiativlik mətndə “gizli əlaqə” formasıdır. Belə mətn formalarında koqeziya potensial formada üzə çıxır. Bəzən hər hansı bir ifadənin mətndə təkrarı

assosiasiyaya yol açır. Məsələn, aşağıdakı mətndə assosiasiyanı "o qalın yorğan" ifadəsi yaratmışdır: "Həmin qış gecəsi Əbdül yenə də *qalın yorğanın* altında idi. O *qalın yorğan* evdə tək idi və Xıdır *o qalın yorğanı* Əbdülə vermişdi, özü qışda da üstünə adyal salırdı, çox soyuq olanda adyalın üstündən paltosunu salırdı. *O qalın yorğan* Əbdülün üzünü görmədiyi atasından, güclə xatırladığı anasından qalmışdı və *o yorğanın* ən gözəl, ən şirin cəhəti o idi ki, Xıdır onu özünə qıymırdı, *o qalın yorğanla* Əbdülü, elə bil ki, təkcə soyuqdan qorumurdu, ümumiyyətlə, dünyanın buz kimi üşüdən işlərindən, bəd əməllərindən qoruyurdu" [3, s.280].

**Mətn və informasiya**

Mətn və onun vahidləri qlobal kateqoriyadır. "Mətn hər şeydən öncə, kommunikativ və informativ bir vahid olaraq sadəcə ona məxsus olan özəl işarələrlə qurulur. Mətn digər işarələrdən fərqli olaraq, həm kommunikativ, həm də informativ bir mahiyyət daşıyır. Biz informasiya dünyasında yaşayırıq və ya biz işarələr dünyasında yaşayırıq. Əslində isə biz bu gün artıq informasiyanın və işarələrin bu və ya digər şəkildə gerçəkləşən və gerçəkləşdirilən seçimi dünyasında yaşayırıq" [9, s.5].

*İnformativlik* – mətnin mühüm xüsusiyyətlərindəndir. Mətnin informasiya komponentləri kimi eksplisit temporal vasitələr ona yeni xəbərin mənası və funksiyası ilə bağlı informasiyanın daxil edilməsinə, yəni informasiyanın müəyyən hissəsinin qabardılmasına şərait yaradır. Bu mənada *"sonra"* temporallıq göstəricisini qəbul etmək lazım gəlir. Mətndə temporal vasitə olmaqla yanaşı, yeni informasiyaya yol açan işarə funksiyaları da aşkarlanmışdır. Mətn müəyyən konkret uyğun məlumatın maksimal dərəcədə səmərəli ötürülməsi prosesini əldə etmək üçün müəyyən sintaktik çərçivədə yaradılır ki, bu da onun bütövlüyünü şərtləndirir. Bu baxımdan mətndə daxili təşkilatlanmaya xas olan xüsusiyyət də mövcuddur. Bu əlamət onu sintaqmatik səviyyədə bir struktur bütövə çevirir. Amma bütöv olmaqdan ötrü mətn həm də daxili əlaqəyə girməlidir. Mətndə cümlə modellərindən fərqli olaraq müəllif fikri var və əsasdır. Yəni mətn yalnız dil modeli olmamalı, həmçinin özündə müəyyən qeyri-dil situasiyasına bağlı konkret məzmun ehtiva etməlidir.

Mətn invariant rolunu oynayaraq dil modelləri olan cümlələrin nitq prosesində aktuallaşmasına yardım göstərir. Bu, nitq prosesinin ən yüksək real, praktik göstəricisi olan mətnin təsvir etdiyi gerçəklik və variasiyaların ən dəqiq mənzərəsini verir və özündən öncəki sintaktik vahidlərin əslində öz strukturundan çıxmasını təmin edir.

İ.Vardul mətnin informasiya nəzəriyyəsi ilə sıx bağlı olduğunu yazır: "Aktual üzvlənmə sayəsində sintaktik tamın ayrı-ayrı cümləsi dilin potensial nominativ va-

sitəsi kimi, ünsiyyət prosesində informasiyanın gerçək daşıyıcısı kimi çıxış edir, kommunikasiyanı təmin edir" [10, s.116].

Ümumiyyətlə, mətnlərdə olan mətnaltı informasiya implisit təbiətə malikdir. Həmin informasiya mətndə açıq-aşkar şəkildə özünü göstərir və həmin məlumatın dərk edilməsi subyektiv faktorlardan asılı durumda olur. O, digər dil və nitq vahidlərindən informasiyavericiliklə daşıdığı məqsədyönlü funksiya ilə bərabər, şifahi və yazılı olaraq gerçəkləşmə formalarına görə də işlənir. Normal mətndə hər hansı bir konkret informasiya verilir.

Ümumiyyətlə, emosionallıq mətnin təşkilində mühüm rol oynayır. Həmin informasiya mətnin təsviri mərhələsində yaranır və inkişaf edir. Bədii mətnlərdə emosional informasiya kommunikasiya prosesində yaranır. Mətndə emosional informasiya emosional vəziyyətin qiymətləndirmə, aktivləşmə və təhrik, nitq fəaliyyətinin pozulması və ekspressiya kimi ortaya çıxır. Emosional informasiya mətn şəraitində oxucunu həyəcanlandırır. Bu həyəcanın səbəbi informasiyada başlıca yer tutan hissi-psixoloji durum olaraq qısazamanlı əhval-ruhiyyə ilə əlaqədar meydana çıxır. Məsələn: Qələbə sevincini bir andaca itirən uşaqlar başlarını aşağı salıb sakitcə gözləyirdilər. Gözləyirdilər ki, bu illərdə ilk dəfə göz yaşlarını gördükləri komandir ürəyini təmiz boşaltsın.

Dil yaraşıq və bəzək deyil, bədii düşüncənin mahiyyətidir və nəticədə fəaliyyətin estetik modelləşdirilməsidir. Dil bir forma kimi düşüncə prosesini əks etdirir, informasiyanı emal edir və kateqoriyalaşmağa xidmət edir.

Bədii mətnlərdə koqnitiv informasiya güclü olur. Həmin informasiya dünyanın dil mənzərəsi haqqındadır: "Dünyanın dil mənzərəsi xalqın müəyyən inkişaf mərhələsində onun gerçəklik haqqında dil vahidlərində təsbit olunmuş təsəvvürlərin məcmusu, dil işarələrində gerçəklik təsəvvürlərinin, dünyanın dildə üzvlənməsi, əşya və hadisələrin nizamlı düzümü, aləm haqqında söz mənalarının sistemində gizlənən informasiyadır. İnsanın informasiya bazasına – onun konseptsferinə daxil olmaqla aparılan tədqiqatlar koqnitiv strukturları aşkar etməyə imkan verir" [11, s.41].

Belə mətnlərdə ritorik suallar, "müəllif obrazı" mühüm yer tutur. "Müəllif obrazı" mətnin ifadə mühitində yerləşir. Ritorik sual – natiqin mühakiməsidir, bu zaman sual formasında düşüncə təzahür olunur. Ritorik sual mətndə cavab tələb etmir, yalnız söyləmlərin emosionallığını yüksəldir. Müəllif nitqi müxtəlif kompozisiya – nitq formaları ilə ifadə olunur; nəqli-təsviri, düşüncə (fikir, mühakimə), predmet-məkan və predmet-əlamət. Mühakimədə fikrin məntiqi inkişafı verilir.

Bu, müstəqildir, zaman daxili xarakter daşıyır. Burada məntiqi, səbəb-nəticə münasibətləri ifadə olunur.

## Nəticə / Conclusion

Mətn nitq vahidlərinin məna əlaqələri ilə birləşmiş ardıcıllığıdır. Mətn sintaksis bölməsində tədqiq edilir. Sintaksisin funksiyalarından biri də mətnin struktur-semantik, kommunikativ-funksional, praqmatik-koqnitiv xüsusiyyətlərini öyrənməkdir.

Beləliklə, mətni həm mətn sintaksisi, həm də sintaksisin mətni tədqiq edir. Hər ikisi mətni kommunikativ və informativ bir vahid kimi sadəcə ona məxsus olan özəl işarələrə istinad edərək öyrənir.

Mətnin qurulmasında potensial vasitələrin rolu bəzi hallarda kənarda qalmışdır. Təbii ki, sadə cümlələrlə yanaşı, mürəkkəb cümlələr də mətnin formalaşmasında həlledici amilə çevrilmişdir. Mətn bütün növ cümlələrin formal-qrammatik və məna vəhdətindən əmələ gəlir.

Mətn informativ struktura malikdir. Mətndə informasiya növləri müxtəlifdir: faktual, konseptual və mətnaltı. Faktlar, hadisələr və proseslərlə bağlı informasiyanı faktual məlumatlar ötürür. Hadisə və proseslər, onların iştirakçılarına müəllifin münasibəti konseptual informasiya fonunda verilir. Mətnaltı informasiya yükündə assosiativ və konnotativ semantika üstünlük təşkil edir.

**İstifadə edilmiş ədəbiyyat / References**


1. Abdullayev K. (2000). Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, Maarif.
2. Azər Turan. (2020). "Sən ey qanadlı yolçu" – Kamal Abdullanın zamansızlığı. "Ədəbiyyat qəzeti", 5 dekabr.
3. Elçin. (2007). Ölüm hökmü.
4. Kazmov Q.Ş. (2000). Müasir Azərbaycan dili. Bakı, Ünsiyyət.
5. Şıxlı İ. (1983). Dəli Kür. Bakı, Yazıçı.
6. Şühədanamə. (2019). Əlyazmanın mətnini nəşrə hazırlayan, "Ön söz"ün müəllifi, izahlar və lüğətin tərtibçisi: akademik Möhsün Nağısoylu. Bakı, Elm.
7. Veysəlli F.Y. (2015). Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri. Bakı, Mütərcim.
8. Ильченко С.К. (1989). Синтаксические единицы в тексте. Ленинград.
9. Калгперин И.Р. (1980). Текст как объект лингвистического исследования. Москва.
10. Клушина Н.И. (2008). Интернациональные категории публицистических текстов в аспекте коммуникативной стилистики (на материалах периодических изданий 2000-2008 кв.). Автореф. дис. д-ра филол. наук. Москва.
11. Лингвистический энциклопедический словарь. (1990). Москва, Советская энциклопедия.
12. Язык мышления. (1967). Москва.